RESPUBLİKA 11 yanvar 2019-cu il

# Uğurları artırmaq əzmindəyik

**Müasir texnoloji yeniliklərlə əhatə olunan dünyada hər bir cəmiyyətin inkişafı ilk növbədə müasir tələblərə uyğun yüksək bilik və bacarıq potensialına malik kadrların mövcudluğundan asılıdır.**

Bu səbəbdən də Azərbaycan hökuməti vətəndaşları üçün dünya standartlarına cavab verən yüksək səviyyəli təhsil imkanlarını yaratmaq istiqamətində ciddi addımlar atmaqdadır.

Ölkəmizdə təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı fəaliyyət planına uyğun olaraq bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi, şagird və tələbələrin təhsilalma imkanlarının genişləndirilməsi, müasir idarəetmə modelinin tətbiqi, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, müəllim fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması, dərslik və dərs vəsaitlərinin hazırlanması, maddi-texniki bazanın möhkəmləndirilməsi, həmçinin təhsil qanunvericiliyinin təkmilləşdirilməsi baxımından sistemli tədbirlərin həyata keçirilməsi və digər sahələrdə əhəmiyyətli nailiyyətlər əldə edilmişdir.

Məlum olduğu kimi, Azərbaycan hazırda intensiv təhsil islahatları dövrünü yaşayır. 1999-cu ildən başlayan bu islahatlar ölkəmizin təhsil tarixində müstəqillik illərinin quruculuq dövrünü əhatə etməklə Azərbaycan təhsilinin demokratik və humanist prinsiplər əsasında qurulması, humanist mahiyyət kəsb etməklə məhz şəxsiyyətin formalaşması amilinə çevrilməsi bu işlərin nailiyyəti kimi dəyərləndirilir.

Təhsilin nəticəyönümlü xarakterinin yaranması onun inkişafyönümlülüyünü təmin etmək baxımından xüsusi əhəmiyyət daşıyır.

Müəllimlərin yeni pedaqoji texnologiyalara yiyələnməsi, onları özlərinin fəaliyyət mexanizminə çevirmələri də məhz bu islahatlar dövründə qazanılmış nailiyyətlər kimi qəbul edilir.

Biz yaxşı bilirik ki, məktəb zamanın tələblərinə uyğun olaraq dəyişir. Artıq İnkişaf Konsepsiyasına uyğun olaraq şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədilə tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Heç şübhəsiz ki, bu uğurlu başlanğıcın davam etdirilməsində ölkəmizin, eləcə də rayonumuzun böyük müəllimlər ordusunun fəal iştirakı, onların bir praktik müəllim kimi yaradıcılıq töhfələri daha çox olacaqdır.

Respublikamızın şimal-qərb bölgəsində yerləşən, uğurları ilə haqlı olaraq öyünən doğma Balakənimizin bu günü dünənindən daha gözəldir. Son illərdə rayonumuzda aparılan böyük abadlıq-quruculuq işləri bütün rayon sakinləri kimi, biz müəllimləri də ürəkdən sevindirir, daha böyük məsuliyyətlə işləməyə, təhsildə yeni-yeni nailiyyətlər qazanmağa sövq edir.

Bu gün çalışdığım Üzeyir bəy Hacıbəyovun adını daşıyan Qabaqçöl qəsəbə tam orta məktəbinin çoxsaylı pedaqoji kollekivi təhsil islahatlarının uğurla həyata keçirilməsi istiqamətində yetərincə tədbirlər görməkdədir.

Respublika Təhsil Nazirliyi tərəfindən verilən əmr və sərəncamların, rayon təhsil şöbəsinin qarşımıza qoyduğu tədris mexa-



nizmini daha da təkmilləşdirməyə xidmət edən tələblərin yerinə yetirilməsi istiqamətində pedaqoji kollektivimiz əlindən gələni əsirgəmir.

Məhz buna görədir ki, məktəbimiz ilbəil daha böyük uğurlara imza atmağa səy göstərir. Bu gün 400 nəfərə yaxın şagirdin təlim-tərbiyəsi ilə 45 nəfər müəllim məşğul olur.

Məktəbimizdə müasir tələblərə cavab verən 24 sinif otağı, müxtəlif fənn kabinetləri şagirdlərimizin istifadəsindədir.

Beynəlmiləl məktəbimizdə şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi pedaqoji kollektivimizin əsas məqsədin-



dən biridir.

Türk dünyasının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev öz parlaq nitqlərində, məzmunlu çıxışlarında xalqımızın əldə etdiyi tarixi qələbələri müstəqilliyimizin qorunub saxlanılmasında, xalqın milli şüurunda güclü şəkildə oyanmasını və vətənpərvərlik şüuruna çatdırılmasını dönə-dönə təkrar etmişdir.

Ulu öndər gənclərin birinci forumundakı nitqində öz narahatlığını belə ifadə etmişdir: "...Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".

Məktəbimizdə Dövlət Müstəqilliyi Gününün, Milli Dirçəliş, Milli Qurtuluş, Silahlı Qüvvələr, Respublika, Dünya Azərbaycanlılarının Həmrəyliyi günlərinin böyük təntənə ilə qeyd olunması şagirdlərimizin yaddaşından uzun zaman silinmir.

Bütün Balakən rayonunun təhsil müəssisələrində olduğu kimi, Qabaqçöl qəsəbə tam orta məktəbində də şagirdlər üçün ən unudulmaz və yaddaqalan tədbirlərdən biri də 20 Yanvar şəhidlərinin və Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan silsilə tədbirlərdir. Artıq bu tədbirlərin hər biri üçün məktəbimizdə hazırlıq işləri yekunlaşmaqdadır.

Məlumdur ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən təhsil strateji sahə elan olunmuşdur. Biz müəllimlər gündəlik fəaliyyətimizlə şagirdlərin layiqli vətəndaşlar kimi formalaşması üçün bundan sonra da qüvvə və bacarığımızı əsirgəməyəcəyik.

**Sevil TUHUMOVA,**
**Balakən rayonu Qabaqçöl qəsəbə Ü.Hacıbəyov adına tam orta məktəbin direktoru, YAP üzvü.**